# ABOUT THE MODAL PROPOSITIONS IN CLASSICAL LOGICS: NASIR AD-DIN TUSI AND IBN SINA

**Eminaga Mamedov[1], Rena Babayeva[2]**

УДК 16.
КВТ 87.4.

**Keywords:**

Logics
Nasir ad-Din
Ibn Sina
Proposition
Modality
Quantifier
Necessaries
Possibility

**ABSTRACT**

In the paper, by involving N.Tusi's treatise "Tajrid al-mantik", Hilli's commentaries to this treatise, and N.Tusi's commentaries to the Ibn Sina's logical treatise "'al-Isharat vat-tanbihat" bases moments corresponding to modal propositions, their classification, connection between them and influence of quantifiers in such propositions are studied.

**Purpose:** the investigation of classical heritage on logics by involving original works

**Methodology:** inner analyses and comparatively investigation of classical materials.

**Scientific novelty**: by involving classical works, the modal propositions, their classification and quantity characteristics are studied.

[1] Institute of Mathematics and Mechanics of ANAS, leading researcher, ph.d.m.
eminm62@gmail.com
[2] Institute of Mathematics and Mechanics of ANAS, researcher

*Received: 10.09.2020*
*Accepted: 16.09.2020*

ISSN: 2710-9960 (Print)
ISSN: 2710-8432 (Online)

JOURNAL OF "HISTORY OF SCIENCE"
Cild 1, Say 1, Sıra I, 2020, 7-15

# KLASSİK MƏNTİQDƏ MODAL TƏKLİFLƏR HAQQINDA: NƏSİRƏDDİN TUSİ VƏ İBN SİNA[1]

**Eminağa Məmmədov[2], Rəna Babayeva[3]**

УДК 16.
KBT 87.4.

**Açar sözlər:**

Məntiq
Nəsirəddin Tusi
İbn Sina
Təklif
Modallıq
Kvantor
Zərurət
İmkan

**ANNOTASİYA**

Məqalədə klassik məntiqdə təkliflərin modallığı və onların təsnifatı, kvantorların təsiri ilə bağlı N.Tusinin və İbn Sinanın baxışları müqayisəli şəkildə öyrənilir. Araşdırmalarda N.Tusinin "Təcrid əl-məntiq", Tusinin tələbəsi olan Əllamə Hillinin "Əl-cövhər ən-nəzid fi şərh məntiq ət-təcrid (Mücərrəd məntiqin nizamlanmış (sistematik) cövhəri)", N.Tusinin İbn Sinanın "Əl-İşarat vət-tənbihat" əsərinə yazdığı "Əl-İşarat vət-Tənbihat. Məə şərh Nəsir əd-Din ət-Tusi" (İbn Sinanın "Əl-İşarat vət-Tənbihat" əsəri. N.Tusinin şərhləri ilə) şərhlərindən istifadə edilmişdir. Adı çəkilən əsərlərdə yalnız aletik (zəruri, təsadüfi və s. kimi) və temporar (zamanla səciyyələnən) modallıq məsələlərinə baxılır. Qeyd edək ki, "Təcrid əl-məntiq" əsəri məntiqin əsas müddəalarını lakonik şəkildə özündə ehtiva edir və onların dəqiq başa düşülməsi üçün N.Tusinin digər əsərlərinə, yaxud ona edilmiş şərhlərə müraciət etmək lazım gəlir.

**Məqsəd:** məntiq sahəsində klassik irsin ilk mənbələr əsasında araşdırılması.

**Metodologiya**: materialın daxili təhlili, mənbələrin müqayisəli araşdırılması.

**Elmi yenilik:** ilk mənbələr əsasında ənənəvi məntiqdə baxılan modal təkliflər, onların təsnifatı və kəmiyyət xüsusiyyətləri öyrənilmişdir.

[1] Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişaf Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – Qrant # EİF /MQM/ Elm – Təhsil -1- 2016 -1(26)-71/11/5

[2] AMEA Riyaziyyat və Mexanika İnstitutu, aparıcı elmi işçi, r.f.d,
eminm62@gmail.com
[3] AMEA Riyaziyyat və Mexanika İnstitutu, elmi işçi

*Məqalə redaksiyaya daxil olmuşdur: 10.09.2020*
*Təkrar işlənməyə göndərilmişdir: 15.09.2020*
*Çapa qəbul edilmişdir: 16.09.2020*

# О МОДАЛЬНЫХ ВЫСКАЗЫВАНИЯХ В КЛАССИЧЕСКОЙ ЛОГИКЕ: НАСИРЕДДИН ТУСИ И ИБН СИНА

**Эминага Мамедов [1], Рена Бабаева [2]**

УДК 16.
КВТ 87.4.

**Ключевые слова:**

Логика
Насиреддин Туси
Ибн Сина
Высказывание
Модальность
Квантор
Необходимость
Возможность

**АННОТАЦИЯ**

В статье, на основе трактатов Н.Туси «Таджрид ал-мантик» («Извлечение из логики»), комментариев его ученика Хилли к этому трактату, а так же комментариев самого Н.Туси к труду Ибн Сины «ал-Ишарат ват-Танбихат» («Указания и наставления»), изучаются модальные суждения их калссификация, взаимосвязь и отношения между ними и вопросы влияния кванторов в таких высказываниях.
**Цель:** изучение классического наследия по логике на основе первоисточников.
**Методология:** внутренний анализ материала, сравнительное исследование первоисточников.
**Научная новизна:** на основе первоисточников модальные высказывания, рассматриваемые в классической логике, их классифакация и количественные характеристики изучены.

[1] Институт Математики и Механики АН Азербайджана, ведущий научный сотрудник, д.ф.м.
eminm62@gmail.com
[2] Институт Математики и Механики АН Азербайджана, научный сотрудник

## GİRİŞ

İlk növbədə qeyd edək ki, keyfiyyət baxımından təkliflər iqrari, yaxud inkari olmaqla iki yerə bölünür. Bundan əlavə, bu keyfiyyətin özü də müxtəlif ola bilər: zamanla bağlılıq baxımından daimi, yaxud qeyri-daimi, subyekt hansısa bir sifət, əlamətlə xarakterizə edilə bilər, hökm potensial olaraq, faktiki olaraq və s. gerçəkləşə bilər. Başqa sözlə, iqrarilik, yaxud inakrılık özü də müxtəlif keyfiyyətlə səciyyələnirlər. Bu keyfiyyət təklifin modallığı ilə ifadə edilir.

Bu məsələlərə [1], [2], [3]-ün III - "Təkliflər və onların halları" adlı fəslində, [4], [5]-də isə IV - "Düşüncələrin məzmunu və onların modallığı haqqında" adlı bölməsində baxılır. [1] əsəri [2]-nin tərcüməsidir. Buna görə də istinadlarda yalnız [1]-dəki səhifələr qeyd edilmişdir. [4] isə [5]-in əsasında tərcümədir. Bəzi məqamlarda gətirilən sitatlarda tərcüməyə müdaxiləmiz olmuşdur. Buna görə də istinadlarda hər iki mənbədəki səhifələri qeyd etmişik.

**Razılaşma.** Təkliflərin modallığını təklifdəki hökmdən sönra qeyd edəcəyik: "A B-dir – mütləq olaraq", "A B-dir - zərurətlə", "A B-dir – mümkün olaraq", "A B-dir –daim", "A B-dir – qeyri-daim" və s.

## MODALLIĞIN TƏRİFİ, PREDİKAT VƏ SUBYEKT ARASINDA MÜNASİBƏT

N.Tusinin tərifi: ***"İstənilən predikat hər bir subyekt ilə - "insan canlıdır" və ya "yazardır" və ya "daşdır" deyimlərimizdə söylədiyimiz kimi müəyyən bir münasibətdədir: ya vacib olaraq, ya mümkün olaraq, ya da inkar ilə. Bu münasibət öz-özlüyündə maddədir. Tələffüz edilməklə, yaxud nisbətlə tələffüz edilmədikdə belə, təklifdən başa düşülən isə modallıqdır".*** ([1] s.61, [3] s.106)

İbn Sinanın tərifi: *"İqrari, yaxud inkarı olmasından asılı olmayaraq hökmdə predikatın və onun oxşarlarının mövzu ilə əlaqəsi özlüyündə*

*- var olmanın (vücudun) zəruriliyi münasibətində - "insan canlıdır, yaxud insan canlı deyildir" deyimlərimizdə söylədiyimiz kimi;*

*- onun (var olmanın) olub-olmaması baxımından zəruri olmamaq münasibətində - "insan yazardır, yaxud yazar deyil" kimi;*

*- yoxluğun (yox olmanın) zəruriliyi münasibətində - "insan daşdır, yaxud daş deyildir" deyimlərimizdəki daş kimi - əlaqəsindən birində olur.*

*Beləliklə, hökmlərin maddələri aşağıdakılardır: vaciblik maddəsi; mümkünlük maddəsi və qeyri- mümkünlük maddəsi.*

*Biz maddə dedikdə iqrar, yaxud inkarda bu üç sözün haqqında düzgün araşdırdıqda təsdiqlənən üç durumu nəzərdə tuturuq"* ([4] s. 170, [5] 306-307,).

İbn Sinanın tərifində modallıq və maddə anlayışları hökmün özü ilə bağlı işlənmişdir. Bu belə bir yanlış təəssürat yarada bilər ki, maddə konkret söylənilən hökmə aiddir. Tusinin tərifində isə predikatlar və mövzular çoxluğunun elementləri arasında funksional münasibtədən söhbət gedir. Burada konkret predikat və mövzunun arasındakı münasibəti əks etdirən təbii funksional asılılıq maddədir. Belə olan halda maddə konkret söylənilən hökmdən asılı olmayan, özlüyündə mövcud olan funksional asılılıqdır. Bu maddə konkret hökmlə istər tələffüz edilsin, istər tələffüz edilmədən əlaqələndirildikdə, təklif modal təklif adlanır. Qeyd edək ki, N.Tusi İbn Sinaya etdiyi şərhlərdə buna aydınlıq gətirmişdir:

*"Bil ki, maddə modallıq deyildir. ... Maddə özlüyündə həmin (preidakatla subyekt arasındakı) münasibətdir (əlaqədir). Modallıq isə həmin hökmə nəzər etdikdə istər söylənsin, istər söylənməsin, istər maddəyə uyğun gəlsin, istər uyğun gəlməsin, onun predikatının subyektinə münasibətindən anlaşılan və təsəvvür ediləndir".* ([4] s.171, [5] s.307)

## MÜTLƏQ VƏ MODAL TƏKLİFLƏR

N.Tusi və İbn Sinanın modal və mütləq təkliflərlə bağlı baxışları aşağıdakılardır:

N.Tusi:

"*Modallar dördtərkiblidirlər. Onların (modallıqların) zikr edilmədikləri isə mütləqdirlər. Vaciblik və imtinalı olmaq hökmün zəruriliyində ortaq (oxşar) olub, iqrarilik və inkarilikdə isə bir-birindən fərqlənirlər. Təklif ya zəruri, ya mümkün, ya da mütləq olur... Mütləqilik iki*

*tərəfdən fəqət (yalnız) birinin faktiki (feli) olmağının varlığını tələb edir, daimi və ya qeyri-daimi olmağa da şamil olur.* ([1] s. 61, 62 , [3] s. 107, 110)

Modal təkliflərdə mövzu, predikat, onlar arasında bağlayıcı ədat və modallıq iştirak etdiyi üçün dördtərkiblidirlər. Təklifdə modallıq qeyd edilmirsə, o mütləq təklif adlanır.

İbn Sina:

*"Hər bir hökm ya ayrılıqda, heç bir bağlantısız ümumi mütləq olur ki, onda ya zəruriliyi və davametmə müddəti və ya bundan başqa ara-sıra (müəyyən bir vaxtda) və ya imkan olduqda baş verməsi açıqlanmayan bir hökm bildirilir, ya da elə olur ki, sadalananlardan nə isə - zərurilik və ya zərurətsiz sürəklilik və ya sürəklilik, ya da zərurət olmadan varolma (mövcudluq) bildirilir".* ([4] s.173, [5] s. 308)

Tusinin İbn Sinanın bu müddəasına şərhi:

*"Mütləq o şeydir ki, onda zərurət, davam, yaxud onların qarşılığı olan digər bir şey açıqlanmadan (söylənmədən) yalnız iqrari, yaxud inkarı hökm bəyan edilmişdir. İmkan zərurətin qarşılığıdır. Baş vermə zamanı da nəzərə alınarsa, bəzi vaxtlarda olmaq davamın qarşılığıdır. Beləliklə, zərurət baxımından bölgü belə olur: iqrarın zərurəti, inkarın zərurəti, və onların hər ikisinin qeyri zərurəti. Davamlılıq baxımından isə bölgü belə olur: iqrarın davamlığı, inkarın davamlığı, və onların hər ikisinin qeyri davamlığı"* ([4] s.174-175, [5] s.311)

Beləliklə, ilkin təsnifatda istər İbn Sina, istər N.Tusi hər ikisi modallığın söylənib-söylənməməsi baxımından təklifləri iki yerə bölürlər: modallığın iştirak etdiyi təkliflər – modal təkliflər və modallığın iştirak etmədiyi təkliflər – mütləq təkliflər. Hər ikisi modallığın ilkin təsnifatında üç variantdan danışırlar: vaciblik, mümkünlük, qeyri-mümkünlük. [6]-da M.Cabbehdarinin bu məsələ barəsində Tusi ilə İbn Sinanın arasında fikir ayrılığının olduğunu söyləməsi doğru deyil. Həmin məqalədə Tusinin modal təklifləri üç növə – zəruri, mümkün, daimi təkliflərə, İbn Sinanın isə - zəruri, mümkün, mümkün olmayan təkliflərə böldüyü söylənir. Gördüyümz kimi, bu belə deyildir. Əslində onların hər ikisi ilkin təsnifatda üç modallığa baxırlar.

Burada üç məqamı qeyd etmək istərdik:

- birincisi, ümumi mütləqilikdə predikatın iqrariliyi və ya inkariliyi mütləq şəkildə - yəni, daimi olub-olmamaqdan təcrid edilmiş şəkildə - hökm edilir, yəni mütləq təklifdə faktitki baş verən hökmdən söhbət getsə də, o, daimi, yaxud daimi olmayan hallara da şamildir. Bunun əksinə, qeyri-daimi olaraq, müəyyən zamanlarda varlıq kəsb edən hökm daimiliyi əhatə etmədiyi üçün xüsusi mütləq hökm adlanır. "Hər bir C B-dir – qeyri-daim" təklifindən iki mütləq təklif alınır: iqrari "hər bir C B-dir" və inkari "heç bir C B deyil". Bu verilən təklifin daimi olmamasından alınır. Ümumiyyətlə, təkliflərin adlarında rast gəldiyimiz "ümumi", "xüsusi" anlayışları həmin anlayışların ümumi, yaxud xüsusi mənada işləndiyini göstərir. Məsələn, "ümumi imkan" mənada anlaşılan "A B deyil – mümkün olaraq" təklifindən üç təklif alınır: "A B deyil - zəruri olaraq"; "mümkündür A B deyil"; "mümkündür A B-dir". Ancaq "B C-dir – mümkün olaraq" təklifində imkan xüsusi mənada işlədildikdə anlaşılan "B-nin C olması vacib deyil və həmçinin bundan imtina da edilmir" təklifidir. Bu mənada təklifdə hər iki zərurət – "A B-dir - zəruri olaraq" və "A B deyil - zəruri olaraq" – ortadan götürülmüşdür. Deməli, təklifin reallaşmasında imkanlarla əhatə edilən yalnız iki hal ola bilər. Buna görə də o, xüsusi imkan adlanır.

- ikincisi isə, düzgün olmayaraq belə başa düşmək olar ki, mütləq hökm zəruri, mümkün, daimi, daimi olmamağın söylənmədiyi bütün bu dörd hökmün ümumi adıdır. İbn Sinaya şərhlərində bununla bağlı Tusi söyləyir: *"Bu belə deyildir. həqiqətdə o, onda (ümumi mütləq hökmdə) bəyan edilən baxımından hökm yalnız artıq faktiki baş vermiş olana şamil olan hökmü əhatə edir, yalnız potensial baş verəcəyə (qüdrətdə olana) şamil olan hökmü əhatə etmir. ...".* ([5] s. 309)

- üçüncüsü, Tusi mütləq hökmləri də modallıqlardan hesab etməyin mümkün olduğunu söyləyir: *"... İnkari hökm qəti hökmlərdən ola bildiyi kimi, mütləq hökm də modal hökmlərdən sayıla bilər...."* ([4] s.174, [5] s.308)

Qeyd edək ki, təkliflərin mütləqiliyi və modallıqları baxımından təsnifatına iki yanaşma olmuşdur. Təkliflər mütləq, zəruri və mümkün olmaqla üç qrupa bölünür. Bu iki üsulla mümkündür:

- birinci üsul: təklifdə onun modallığı ya söylənir, ya da söylənmir. Söylənmədikdə o, mütləq təklif adlanır. Söyləndikdə ya zəruri olur, ya da zəruri olmur. Birinci zəruri, ikincisi mümkün təklif adlanır.

- ikinci üsul isə aşağıdakından ibarətdir: hökm ya faktiki ya da potensial olur. İkincisi, yəni potensial olan, imkan adlanır. Birincisi, yəni faktiki – feli olan ya zəruri, ya da qeyri-zəruri olur. Qeyri-zəruri olan mütləq təklif adlanır.

Həm İbn Sina, həm də N.Tusi ikinci üsulla bölgülənmənin mümkün olduğunu söyləsələr də, birinci üsulla bölgülənmə haqqında danışmışlar. Buna görə də, irəlidə yalnız birinci üsulla təsnifata uyğun araşdırmalardan söhbət gedir.

## "TƏCRİD ƏL-MƏNTİQ" ƏSƏRİNDƏ TƏKLİFLƏRİN TƏSNİFATI HAQQINDA

[4] və [5]-də modal təkliflərin bütün durumları haqqında söhbət aparılsa da, onların aşkar məxsusi təsnifatı verilməmişdir. "Təcrid əl-məntiq" əsərində isə bu sistematik şəkildə öz əksini tapmışdır. Yuxarıda bəzi anlara aydınlıq gətirsək də burada əsərdə rast gəldimiz bütün halları xülasə şəklində bir daha sadalamağı məqsədəuyğun hesab edirik.

Mütləq təkliflər (əl-mütləqə) – söylədiyimiz kimi, modallığı qeyd edilməmiş təkliflərdir. Burada faktiki baş vermiş hökmdən söhbət gedir.

Ümumi mütləqilik (əl-mütləqətül-ammə)– təklifin hökmü həm daimi, həm də qeyri-daimi ola bilər, ancaq onun inkarı daimi ola bilməz.

Qeyri-daimi (əl-vücudiyyətü-l-la daimə) yaxud xüsusi mütləqilik (əl-mütləqətül-xassə). Qeyri-daimi vücudilikdə subyektin predikatla vəsfindəki iqrar yaxud inkar qeyri-daimi xarakter daşıyır. "Hər bir A B-dir – qeyri-daimi" təklifindən iki ümumi mütləq təklif ayrılmazdır: iqrari - "hər bir A B-dir" və inkari - "heç bir A B deyil". Bu mənada vücudi təklif özlüyündə iki mürəkkəb təklifin sintezidir.

Zəruri təkliflər – subyektin predikatla vəsfi vacib xarakter daşıyır. Zəruriliyin hökmlərinə gəldikdə, Tusinin İbn Sinaya etdiyi şərhlərdən aşağıdakılar aydın olur:

- mütləq zərurət – qeyri-şərtsiz, istisnasız, əzəldən daimi olandır. "Allah mövcuddur" hökmü buna misal göstərilmişdir. Buradakı mütləq sözü təklifin mütləq olduğunu deyil, zərurətin mütləq, qeyri-şərtsiz olduğunu göstərir;

- şərti zərurət. Bu müəyyən şərtlərlə bağlıdır. Bu şərtlər subyektlə də, predikatla da bağlı ola bilər:

- subyektin varlığının davamı ilə,
- subyektin üzərindəki əlamətin, sifətin, funksiyanın varlığının davamı ilə,
- predikatin varlığının davam etməsi ilə.

Bütün üç halda hökm

- müəyyən konkret bir zamanla,
- qeyri-müəyyən bir zamanla bağlı ola bilər.

Mümkün təkliflər (əl-imkan) - subyektin predikatla vəsf edilməsi mümkündür. Modallıqda imkan qeyri-mümkünlüyün, yəni inkar olunmağın qarşılığında hökm ediləndir. "A-nın B olması mümkündür" təklifindən "A-nın B olmaması vacib deyil", "A-nın B olmaması mümkündür" təklifindən isə "A-nın B olması vacib deyil" başa düşülür.

Ümumi imkan (əl-imkanü-l-amm)– bir şeyin mümkün olması söylənsə də, onun inkarı da inkar edilmir. "A-nın B olması mümkündür" təklifində aşağıdakı nəzərdə tutulur: "A-nın B olması vacib deyil, ancaq olması da inkar edilmir"

Xüsusi imkan (əl-imkanü-l-xass) – imkan, mümkün sözü xüsusi mənada işlənir. Bir şeyin mümkün (qeyri-mümkün) olması hökm edilmişsə, onun inkarı (təsdiqi) qeyri-mümkün sayılır.

Təklifdə subyekt hansısa bir sifətlə təsvir edilməmişsə, onda sübyektin zatı, yəni onun həqiqəti haqqında hökm edilir, yəni zərurilik, mütləqiqlik, davamlı olmaq yaxud mümkün olmaq, subyekt istər müəyyən bir əlamətə malik olsun, yaxud olmasın doğrudur. Məsələn, "A B-dir – zəruri olaraq" təklifində hökm A-nın zatı haqqındadır. Bu hökm A müəyyən bir C xassəsinə, əlamətinə malik olduqda da öz qüvvəsində qalır.

Vəsfilik (əl-vəsfiiyyə)– subyekt hansısa bir sifət, hal, əlamətlə qeyd olunmuş olur: "A C xassəsinə malikdirsə, o B-dir". Məsələn, "insan yazdıqda onun əli hərəkət edir" mütləq təklifində syubyekt – insan yazmaq prosesində olduqda təsvir edilmişdir. Bu hökm subyektin zatı haqqında deyil.

Ümumi ənənəvilik (əl-ürfiyyətü-l-ammə) - subyektin verilən sifətlə vəsfi davam etdikcə predikatla təsdiqi yaxud inkarı dəyişməz qalır. "İnsanın əli yazmaq dayanmadıqca tərpənir" təklifində yazmaq prosesi dayanmayana kimi əl tərpənir. Beləliklə, ümumi ənənəvi təklif vəsfi daimi təklifdir. Təklifin ənənəvi adlanması hökmdən el arasında anlaşılan mənaya uyğunluqla bağlıdır. Belə ki, "heç bir A B deyil" təklifindən el arasında məhz A aradan getmədiyi təqdirdə (dəyişməz olduqda) onun B olmaması başa düşülür.

Ümumi şərtlənmiş (əl-məşrutətü-l-ammə) müəyyən bir sifətlə vəsf edilmiş, bu vəsf ortadan getməyənə kimi subyekt üçün zəruri olan ya zəruri olaraq danılan hökmdür. Ümumi şərtlənmiş ümumi ənənəvilikdən daha xüsusidir. Çünki zəruri olmaq daimi olmaqdan daha xüsusidir. Misallar: "insanın əli yazmaq dayanmadıqca hərəkət edir - zəruri olaraq", "heç bir insanın əli yazmaq dayanmadıqca tərpənməyə bilməz - zəruru olaraq"

Konkret zamanla bağlılıq (əl-vəqtiyyə)– zəruri hökmün gerçəkləşməsi konkret zamanla bağlandıqda hökm konkret zamanlı hökm adlanır. "Ay tutulması zamanı yerin üzərinə qaranlıq çökür – zəruri olaraq" hökmü konkret müəyyən zamanla "ayın tutulması" ilə bağlıdır.

Qeyri-konkret zamanla bağlılıq (əl-müntəşirə) - zəruri hökmün gerçəkləşməsi zamanla konkret deyil, yayımlı, səpələnmiş şəkildə bağlı olur. "Hər bir insan tənəffüs edir" təklifində tənəffüs konkret deyil, zamanla yayımlı şəkildə bağlıdır.

Konkret zamanlı ümumi mütləqilik (əl-mütləqətü-l–ammətü-l-vəqtiyyə) hissələri olmayan müəyyən bir vaxt ilə bağlılığı zərurət yaxud imkanla bağlı olmadan hökm edilən təklifdir. Başqa sözlə, bu hökmlərdə zərurət, yaxud mümkünlük də istisna edilmir, həmçinin zaman elə deyil ki, hökm onun bir hissəsində gerçək, digər hissəsində doğru olmasın. Məsələn, "indiki anda A B-dir" hökmündə zərurilik də, imkan da mümkündür. Ancaq baxılan zamanın bir hissəsində gerçəkləşmə, digər bir hissəsində isə gerçəkləşməmə ola bilməz.

**MODALLIQLAR ARASINDA MÜNASİBƏTLƏR**

Ümumi mütləqilikdə hökmün daimi, yaxud qeyri-daimi olması deyil, onun faktiki hansısa bir məqamda gerçəkləşməsi, yaxud gerçəkləşməməsi nəzərdə tutulur ki, bu mənada o, ümumi adlanır.

Qeyri-daimi vücudilik və ya xüsusi mütləqilikdə hökm qeyri-daimi olduğu üçün o, ümumi mütləqilikdən daha xüsusidir. Yuxarıda söylədiyimiz kimi, qeyri-daimi vücudilikdən iki ümumi mütləq təklif ayrılmazdır.

Ümumi imkan ümumi mütləqilikdən daha ümumidir. Belə ki, ümumi mütləqilikdə predikat subyekt üçün konkret hansısa məqamda daşıyıcı rolu oynayır. Buna görə də predikatın subyekt üçün mümkün olması qəti sübut edilmiş olur. Ümumi imkanda isə həmin imkanın olmamasının qeyri-mümkünlüyünün zəruri olması danılır.

Xüsusi imkan da xüsusi mütləqilikdən daha ümumidir. Belə ki, "hər bir A B-dir – qeyri-daim" təklifindən hər bir A-nın B olması imkanı, olmamasının isə qeyri-mümkün olması qəti şəkildə əldə edilir.

Daimlik də zərurilikdən daha ümumidir. Belə ki, zərurilik mümkünlüyün qarşılığıdır. "Hər bir A B –dir – mümkün olaraq" təklifinin müqabili "müəyyən bir A B deyildir – zərurətlə" təklifidir. Daimilik isə mütləqiliyin müqabildir. "Hər bir A B-dir" mütləq təklifinin müqabili "müəyyən bir A B deyil – daim" daimi təklifidir. Yuxarıda söylədiyimiz kimi, mümkünlük mütləqilikdən daha ümumidir. Buna görə də onların müqabilləri arasında münasibət əksinə olmalıdır, yəni daimilik zərurilikdən daha ümumidir.

Şərtlənmiş isə ənənəvilikdən daha xüsusidir. Bu tərifdən aydındır, çünki şərtlənmişlər vəsfi zərurətdir, ənənəvilk isə daimi vəsfilikdir. Yuxarıda söylədiyimiz kimi, zərurilik daimilikdən daha xüsusidir. Buna görə də, vəsfi zərurət vəsfi daimilkdən daha xüsusidir.

Konkret zamanlı mütləqiliyin qarşılığı konkret zamanlı mütləqilikdir, onlar yalnız keyfiyyətlərində fərqli olurlar. Belə ki, "hazırda A B-dir" təklifinin inkarı "hazırda A B deyil" təklifidir.

ISSN: 2710-9960 (Print) JOURNAL OF "HISTORY OF SCIENCE"
ISSN: 2710-8432 (Online) Cild 1, Say 1, Sıra I, 2020, 7-15

Qeyri-konkret zamanlının hökmü ümumi mütləqiliyin hökmü kimidir, çünki qeyri-konkret zamanlı təklifdə hökm zərurilik, daimilik, yaxud onların müqabilləri ilə bağlanmadan qeyri-müəyyən bir vaxtla bağlı olaraq doğrudur.

Ənənəvilk daimilikdən daha ümumidir. Çünki daimi hökmdə şeyin zatı dəyişməz qalır, buna görə də daimi olmaq bütün sifətlərin də davamlı olmasını tələb edir. Ənənəvilkdə isə davamlılıq dedikdə şeyin zatının deyil, söylənilən sifətin davamlılığından söhbət gedir. Sifət aradan getsə də şeyin zatı dəyişməz qalır. Çünki sifət şeyin həqiqəti deyil, o, yalnız ikinci dərəcəli xarakteristika kimi çıxış edir.

Ənənəviliyin müqabili vəsfi mütləqilikdir - "hər bir A A olduqca B-dir - daimi" təklifinin inkarı "bəzi A A olduqca B deyil" vəsfi mütləq təklifidir.

Daimiliyin müqabili isə ümumi mütləqilikdir. "Hər bir A B-dir – daimi" təklifinin inkarı "bəzi A B deyil" mütləq təklifidir.

Misallardan da göründüyü kimi ənənəviliyin inkarı daha xüsusidir. Bu da bir daha ənənəviliyin daimilikdən daha ümumi olmasını göstərir.

Şərtlənmiş zərurilikdən daha ümumidir. Belə ki zəruriliyin inkarı şərtlənmişin inkarından daha ümumidir. "Hər bir A B-dir – zərurətlə" təklifinin inkarı "bəzi A B deyil" mütləq təklifidir. "hər bir A C xassəsinə malik olduqca B-dir –zərurətlə" təklifinin inkarı isə "bəzi A C olduqca B deyil" vəsfi mütləq təklifidir. Digər tərəfdən, zəruri hökm şeyin zatı haqqında hökmdür. Subyekt müəyyən bir əlamətlə xarakterizə edildikdə də bu hökm doğrudur, buna görə də, zəruri hökmdə subyekt hansısa bir əlamət, sifətlə bağlandıqda da o hökm öz qüvvəsində qalır. Deməli, zəruri hökm vəsfi hökm kimi də öz qüvvəsində qalır. Başqa sözlə, hər bir zəruri hökm eyni zamanda vəsfi hökmdür.

## MODAL TƏKLİFLƏRDƏ KVANTORLARIN TƏSİRİ HAQQINDA

Yuxarıda söylədiyimiz kimi, təkliflərin modallığı təklifdəki hökmdən sönra qeyd edilir. Bundan əlavə, modal hökmlərdə kəmiyyəti səciyyələndirən ümümilik və varlıq kvantorları da iştirak edirlər. Bu zaman kvantorun nələri öz təsiri altında saxlamasını düzgün başa düşmək lazımdır: kvantor subyektin dəyişməz elementlərini, yoxsa subyektin dəyişkən elementləri üçün hökmün gerçəkləşməsini göstərir? Məsələn, "bəzi A-lar B-dir – daim" hökmünü müxtəlif cür başa düşmək olar:

- qeyd edilmiş bəzi dəyişməz, invariant olan A-lar istənilən anda B-dir;
- daim elə bir A var ki, o B-dir (müxtəlif zamanlarda ola bilər müxtəlif A-lar olsun).

Suala düzgün cavab vermək üçün təkliflər və onların inkarlarını, dörd məntiqi fiqurun nəticəli moduslarını araşdırmaq lazım gəlir. Bu araşdırmalar kvantorların subyektin sabit – dəyişməz elementlərini öz təsirləri altında saxladığını göstərir.

Kəmiyyət və keyfiyyət nəzərə alınmaqla təkliflərin modallığından nəyin nəzərdə tutulması ilə bağlı aşağıdakılara diqqət yetirmək lazımdır:

"A B-dir – mütləq olaraq" yazılışından adi danışıqdakı kimi "mütləq olaraq A-nın B olması" deyil, "A B-dir" mütləq təklifi başa düşülür, yəni faktiki A-nın B olması başa düşülür. Bu hökmün gerçəkləşməsi daimi və qeyri-daimi də ola bilər;

"İstənilən A B-dir" təklifi ilə daimi, yaxud qeyri-daimi şəkildə, A –nın hər bir elementinin faktiki müəyyən anda (ola bilər fərqli zamanlarda) B olması nəzərdə tutulur. Bu da subyektin müxtəlif elementləri üçün müxtəlif məqamlarda ola bilər.

"İstənilən A B-dir - daim" təklifi ilə nə nəzərdə tutulur: istənilən A hər zaman B-dir, yoxsa hər bir A müəyyən zamanda B-dir və istənilən zamanda belə bir A var? Başqa sözlə, kvantor nəyi öz təsiri altında saxlayır? "Təcrid əl-məntiq" əsərində ([1]) daimi hökmlərin inkarı ilə bağlı olaraq 100-cü müddəada aşağıdakı söylənir: "daimilik ümumi mütləqilik ilə (qarşılıqlı inkar təşkil edir)". Başqa sözlə, "hər bir A B-dir - daim" hökmünün inkarı "bəzi A B deyil – mütləq" təklifidir, yəni hansısa faktiki zamanda müəyyən bir A B deyil. İnkarda varlıq kvantoru müəyyən sabit A-larla bağlıdır. Buna görə də təklifin özündəki ümumilik kvantoru subyektin hər bir elementini öz təsirində saxlayır. Beləliklə, baxılan təkliflə "A-nın hər bir elementinin hər zaman B olması" başa düşülməlidir.

"Hər bir A B-dir – qeyri-daim" təklifində ümümilik kvantoru nəyi öz təsiri altında saxlayır – subyektin elementlərini, yoxsa hökmü? [1]-in 106-cı müddəasında qeyri-daimi olmayan hökmlərin

inkarı ilə bağlı olaraq aşağıdakı söylənir: "vücudiliyin (daimi olmayaraq, müəyyən bir zamanda baş verən hökmlərin) inkarında isə onların [iki tərəfin] davamlığı ilə (qarşılıqlı inkar təşkil dir)". Başqa sözlə, "hər bir A B-dir –qeyri-daim" təklifinin inkarı olaraq iki təklif alınır

- "bəzi A B deyil – daim"
- "bəzi A B-dir –daim".

Göründüyü kimi, inkarda ümümilik kavantoruna qarşılıq seçilən varlıq kvantoru sübyektin sabit elementlərinə təsir edir. Beləliklə, baxılan təklifdə ümümilik kvantoru subyektin elementlərini öz təsiri altında saxlamalıdır. Buna görə də baxılan hökm aşağıdakı kimi başa düşülməlidir: hər bir A B-dir, ancaq bu aidolma, yaxud təsvir özü daimi deyil, qeyri-daimi xarakter daşıyır

Bu varlıq kvantoru üçün də belədir. Yuxarıda söylədiyimiz "bəzi A B-dir - daim" təklifində varlıq kvantoru dəyişməz olan bəzi A-ları əhatə edir.

## NƏTİCƏ

Klassik məntiqdə təkliflərin modallıqlarının təsnifatına iki yanaşma olmuşdur. Hər iki yanaşmada təkliflər mütləq, zəruri və mümkün olmaqla üç qrupa bölünür. Lakin bu iki üsulla mümkündür. Birinci üsulda təklifdə modallıq qeyd edilmirsə, o, mütləq, söyləndikdə isə ya zəruri, qa da qeyri-zəruri olur. İkinci üsulda isə hökm faktiki olarsa, ya zəruri ya da qeyri-zəruri olur, qeyri-zəruri olan mütləq təklif adlanır, faktiki olmayan isə imkan (mümkün) adlanır. İbn Sina və Tusi hər ikisi ikinci üsulla bölgülənmənin mümkün olduğunu söyləsələr də, birinci üsulla bölgülənmə haqqında danışmışlar. Modal təkliflərdə kvantorların təsirinə gəldikdə isə, onlar, yalnız subyektin dəyişməz, sabit elementlərini öz təsiri altında saxlayır.

## ƏDƏBİYYAT SİYAHISI

1. Xacə Nəsirəddin Tusi. "Təcrid əl-məntiq" (ərəb dilindən tərcümə və şərhlər). Bakı, "Araz" - 2012, 260 səh.
2. Tusi N. Təcrid əl-Məntiq (ərəb dilində). Beyrut - 1988., 78 s.
3. Əllamə Hilli. Əl-cövhər ən-nəzid fi şərh məntiq ət-təcrid (Mücərrəd məntiqin nizamlanmış (sistematik) cövhəri). Qum – 2007, 480 səh.
4. Xacə Nəsirəddin Tusi. Şərh əl-işarat (ərəb dilindən tərc. S.Bayramov). Bakı, Nurlan 2004, 392 s.
5. İbn Sina. "Əl-İşarat vət-Tənbihat. Məə şərh Nəsir əd-Din ət-Tusi" (İbn Sinanın "Əl-İşarat vət-Tənbihat" əsəri. N.Tusinin şərhləri ilə), Qahirə 1960, 567 s.
6. Джаббехдари М. Модальность в логических учениях Насиреддина Туси. Материалы Международной конференции, почвященой 810-летию Мухаммеда Насиреддина Туси, Баку – 2011, стр.152